# THE IMPACT OF THE USE OF ARTIFICIAL INTELLIGENCE ON THE PSYCHOLOGY OF YOUNG PEOPLE

**Ilaha Nabiyeva**[1]

**UDC:** 159.9:004.8-053.6
**LBC:** 88.5:32.813
**HoS:** 97
**DOI:** 10.33864/2790-0037.2025.v6.i4.93-100

**Keywords:**

Technology, Artificial intelligence, Psychology, Personality, Communication, Personality development

## ABSTRACT

In our New World, people have unprecedented opportunities in technological development. The advancement of technology, along with the expansion of social media and artificial intelligence, affects human psychology and interpersonal relationships. This impact is most pronounced among the "Z generation", who grew up with the development of technology and the Internet, and the "Alpha generation", who were born into a world of digital technologies. In an era of rapid life pace and ever-increasing information flow, young people are using artificial intelligence more frequently. They obtain information through AI, generate new ideas, and engage with it socially and recreationally. In this regard, it is important to investigate the impact of artificial intelligence on human psychology. According to statistics from the Digital Education Council (2024), 86% of students globally in the field of education regularly use AI, with 54% using it at least once a week.

This article examines the impact of artificial intelligence on the psychology of young people. The use of AI has both positive and negative effects on personality, cognitive skills, socialization, and learning activities. The article also addresses the psychological risks that may arise from the misuse of AI, such as addiction, decreased self-esteem, social isolation, and cognitive laziness, and provides recommendations for young people, parents, and experts regarding its proper use.

[1] Doctoral student at the Department of Psychology, Baku State University; Baku, Azerbaijan
E-mail: psixoloq.ilaha.nabiyeva@gmail.com
https://orcid.org/0009-0000-6545-4116
**To cite this article:** Nabiyeva, I. [2025]. The Impact of the Use of Artificial Intelligence on the Psychology of Young People. *History of Science journal*, *6*(4), pp.93-100.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i4.93-100

***Article history:***
*Received: 27.05.2025*
*Accepted: 15.09.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# SÜNİ İNTELLEKTDƏN İSTİFADƏNİN GƏNCLƏRİN PSİXOLOGİYASINA TƏSİRİ

**İlahə Nəbiyeva**[1]

**UOT:** 159.9:004.8-053.6
**KBT:** 88.5:32.813
**HoS:** 97
**DOI:** 10.33864/2790-0037.2025.v6.i4.93-100

**Açar sözlər:**

Texnologiya,
Süni intellekt,
Psixologiya,
Şəxsiyyət,
Ünsiyyət,
Şəxsiyyətin inkişafı

## ANNOTASİYA

Yeni Dünyamızda insanlar texnologiyaların inkişafı baxımından indiyədək gələ biləcəyimiz ən geniş imkanlara malikdir. Texnologiyanın inkişafı, sosial media və süni intellektdən istifadənin genişlənməsi insanların psixologiyasına və onların qarşılıqlı münasibətinə təsir göstərir. Bu təsirə ən çox da texnologiya və internetin inkişafı ilə birgə böyüyən “Z nəsli” və rəqəmsal texnologiyalarla birgə doğulan “Alfa nəsli” məruz qalır. Həyatın bu qədər sürətləndiyi, daim artmaqda davam edən informasiya axınının olduğu bir dövrdə gənclər süni intellekdən daha çox istifadə edirlər. Onlar süni intellekt vasitəsilə məlumat əldə edir, yeni ideyalar formalaşdırır, əylənir, hətta onunla dost olurlar. Bu baxımdan süni intellektin insan psixologiyasına təsiri məsələsini araşdırmaq olduqca zəruridir. Rəqəmsal Təhsil Şurasının 2024-cü ilinin statistikasına görə, təkcə təhsil sahəsində qlobal miqyasda tələbələrin 86%-i müntəzəm olaraq Sİ-dən istifadə edir ki, bunların da 54%-i həftədə ən az bir dəfə Sİ-dən istifadə edir.

Bu məqalədə süni intellektin gənclərin psixologiyasına təsiri araşdırılmışdır. Süni intellekdən istifadə gənclərin şəxsiyyətinə, koqnitiv bacarıqlarına, sosiallaşmasına və öyrənmə fəaliyyətinə bir sıra müsbət və mənfi təsirlər göstərir. Məqalədə eyni zamanda süni intellektin yanlış istifadəsi nəticəsində yarana biləcək psixoloji risklərə yəni, asılılıq, özünəinamın azalması və sosial təcrid, koqnitiv tənbəllik kimi məslələlərə də toxunulmuş və süni intellektdən düzgün istifadə edilməsi baxımından gənclər, valideynlə və mütəxəssislər üçün tövsiyyələr hazırlanmışdır.

[1] Bakı Dövət Universiteti, Psixologiya kafedrasının doktorantı; Bakı, Azərbaycan
E-mail: psixoloq.ilaha.nabiyeva@gmail.com
https://orcid.org/0009-0000-6545-4116
**Məqaləyə istinad:** Nəbiyeva, İ. [2025]. Süni İntellektdən İstifadənin Gənclərin Psixologiyasına Təsiri. *History of Science jurnalı*, *6*(4), səh.93-100.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i4.93-100

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 27.05.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 30.06.2025*
*Çapa qəbul edilmişdir: 15.09.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# ВЛИЯНИЕ ИСПОЛЬЗОВАНИЯ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА НА ПСИХОЛОГИЮ МОЛОДЁЖИ

**Илаха Набиева**[1]

**УДК:** 159.9:004.8-053.6
**ББК:** 88.5:32.813
**HoS:** 97
**DOI:** 10.33864/2790-0037.2025.v6.i4.93-100

**Ключевые слова:**

Технологии, Искусственный интеллект, Психология, Личность, Коммуникация, Развитие личности

## АННОТАЦИЯ

В нашем новом мире у людей есть беспрецедентные возможности в области технологического развития. Развитие технологий, а также расширение использования социальных сетей и искусственного интеллекта влияет на психологию человека и межличностные отношения. Это влияние особенно проявляется у поколения «Z», которое выросло на фоне развития технологий и Интернета, а также у поколения «Альфа», которое родилось в цифровую эпоху. В эпоху высокой скорости жизни и постоянно растущего потока информации молодые люди всё чаще используют искусственный интеллект. Они получают информацию с помощью ИИ, генерируют новые идеи и взаимодействуют с ним как в учебных, так и в развлекательных целях. В этом контексте важно изучать влияние искусственного интеллекта на психологию человека. Согласно статистике «Digital Education Council» за 2024 год, 86% студентов во всём мире в области образования регулярно используют ИИ, из которых 54% используют его как минимум раз в неделю.

Данная статья рассматривает влияние искусственного интеллекта на психологию молодых людей. Использование ИИ оказывает как положительное, так и отрицательное воздействие на личность, когнитивные способности, социализацию и учебную деятельность. В статье также обсуждаются психологические риски, которые могут возникнуть при неправильном использовании ИИ, такие как зависимость, снижение самооценки, социальная изоляция и когнитивная пассивность, а также предоставляются рекомендации для молодых людей, родителей и специалистов относительно правильного использования искусственного интеллекта.

[1] Докторант кафедры психологии Бакинского государственного университета; Баку, Азербайджан
E-mail: psixoloq.ilaha.nabiyeva@gmail.com
https://orcid.org/0009-0000-6545-4116
**Цитировать статью:** Набиева, И. [2025]. Влияние Использования Искусственного Интеллекта на Психологию Молодёжи. *Журнал History of Science*, *6*(4), с.93-100.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i4.93-100

***История статьи:***
*Статья поступила в редакцию: 27.05.2025*
*Отправлена на доработку: 30.06.2025*
*Принята для печати: 15.09.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Bilgi axtarışı, məlumat ehtiyacı tarix boyu insanların vacib ehtiyaclarından biri olmuşdur. Bütün istiqamətlər kimi bu sahə də yarandığı gündən bəri müxtəlif formalarda inkişaf etmişdir. Amma işin özündə məsələnin o bilgi axtarışı tərəfi heç dəyişilməmişdir. Hal-hazırda elm və texnikanın inkişafı, internetdən istifadənin bu qədər genişlənməsi, süni intellektin və ağıllı robotların yaranması həyatımızda, eləcə də məlumat mübadiləsində bir çox dəyişiklərin yaranmasına gətirib çıxarmışdır. Həyatımız asanlaşmaq konteksində mürəkkəbləşməyə doğru gedir və insanlar bu vasitələrdən istifadə edərək həyatlarını asanlaşdırdıqlarını düşünürlər. Doğrudur, süni intellektdən istifadə həyatımızın bir çox sahəsində bizə çox kömək edir ki, bu da bizim məlumatlara əlçatanlılığımızı gücləndirir, zaman və məkan məhdudiyyətlərini aradan qaldırır. Lakin bu asanlaşma əslində gündəlik həyatımızda bir çox şeyin öz seyrini dəyişməyinə də səbəb olur. Svizzera Universitetinin Süni İntellekt İnstitunun direktoru professor S. Jürgen 2016-cı ildə bir çıxışında "Süni intellekt hər şeyi dəyişəcəkdir." deyə elan etmişdir [Jürgen, 2016]. Onun bu fikri çox böyük əhəmiyyət kəsb edir. Hazırda həmin çıxışdan 9 il ötməsinə baxmayaraq bu proses hələ də davam etməkdədir. Süni intellekt həyatımızı çox dəyişib və dəyişməyə də davam edir. Bu XXI əsrin ən böyük texnoloji naliyyətlərindən biridir. Süni intellekt hazırki dövrdə əmək bazarından tutmuş, təhsil, səhiyyə, sosial münasibətlər və digər bu kimi istiqamətlərdə istifadə edilir və bu prosesləri daha sürətli, dəqiq və əlçatan edir. Bu baxımdan süni intellekt günümüzün reallığıdır və onun həyatımızı dəyişdirməsi qaçınılmazdır. Lakin süni intellektin insan həyatının bu qədər çox sahəsində öz varlığını göstərməsi və ona təsiri məsələni təkcə texnoloji istiqamətdə deyil də, eyni zamanda sosial və humanitar elmlər sistemində də araşdırılmasını zəruri edir. Süni intellekt həyatımızda bir çox çeyi dəyişir və dəyişməyə də davam edəcək. Lakin bu dəyişikliklərin hansı hansı istiqamətdə gedəcəyi cəmiyyətin verdiyi qərarlardan asılıdır.

## 2.Süni intellektin tarixi

Mövzunu daha dərindən anlamaq üçün ilk olaraq süni intellektin nə olmasına və onun tarixi inkişafına nəzər salmaq vacibdir. Süni intellekt kompyuter elmlərinin bir istiqamətidir və o insan intellektinə xas olan idrak funksiyalarını yəni, öyrənmə, məntiqi nəticə çıxarma, qərarvermə, problem həll etmə və dil anlama qabiliyyətlərini eləcə də, bütün bunları texniki sistemlərdə modelləşdirməyi hədəfləyir [Kaplan & Haenlein, 2018]. Başqa sözlə süni intellekt insanın koqinitiv bacarıqlarının virtual sistemdə alqoritmik simulyasiyasıdır. Bundan başqa süni intellektlə bağlı bir çox fərqli fikirlər də mövcuddur. Süni intellekt (Artificial Intelligence) süni və intellekt deyə iki sözün birləşməsindən yaranmışdır. Burada "Süni" yəni insan tərəfindən xüsusi şəraitlərdə yaradılmış, "intellekt" isə latın dilindən koqinitiv bacarıqlar olaraq izah edə bilərik. Bu ifadəni ilk dəfə termin olaraq 1956-cı ildə Dartmut Konfransında John McCarthy tərəfindən işlədilmişdir [McCarthy et al., 2006]. Daha sonra isə optimizm dövrü və 1970-90 –cı illərdə Sİ-nin qışı başladı və onun inkişafı zəiflədi. Bu ABŞ və Böyük Britaniyada maliyyələşmənin azalmasına səbəb oldu, nəticələrin zəifliyi süni intellektin inkişafını ləngitdi [Crevier, 1993].

1990-2000-ci illər arasında süni intellektin yenidən dirçəliş dövrü başladı və 2000-ci ildən etibarən bu günədək süni intellektin tarixində müasir dövr adlanır. Bu illər ərzində süni intellekt çox inkişaf edib və həyatın istənilən sahəsində çox böyük yeniliklərə imza atmışdır. Bu illər ərzində böyük verilənlərin (Big Data) toplanması və dərin öyrənmə alqoritmlərinin inkişafı süni intellekt sahəsində inqilabi dönüş yaratdı. Hazırda süni intellekt gənclərin həyatının ayrılmaz bir hissəsinə çevrilmişdir və böyük şirkətlər süni intellektdən istifadə etməyə başlayıb. Bu proses belə davam etsə hətta bəzi sahələrdə suni intellekt insan əməyinin yerinə də keçə bilər. Artıq bir çox sahələrdə süni intellektdən istifadə bacarıqları çox vacibdir. Hətta bu istiqamətdə Promt mühəndisliyi kimi yeni peşə sahələri formalaşmağa başlayıb. Bu kimi peşələr süni intellektdən daha sürətli nəticələr əldə etmək

üçün formalaşır. Yəni biz süni intellektə sualı yaxud göstərişi hansı formada etdikdə ondan daha doğru və dəqiq nəticə ələ ala bilərik. Bunu ənənəvi həyatla müqayisəli şəkildə izah etsək, yəni doğru və düşünülmüş, dəqiq strukturlu sual vermək bizim doğru cavab tapmağımıza kömək edir. Hazırda "Siri", "Google Assistant", "Chat GPT", "Gemini" kimi süni intellekt sistemləri geniş istifadə olunur.

**3.Süni intellektin istifadə sahələri**

İnternetdən aktiv istifadə edən hər bir şəxs demək olar ki, həyatının müxtəlif dövrlərində süni intellektə müraciət edib. Sadəcə biz bunun fərqində olmaya bilərik. Bunu belə izah etmək mümkündür. Təsəvvür edin siz Google-da hansısa bir mövzuda araşdırma edirsiniz. Bu mövzuda daha spesifik bir məlumat axtardığınız zaman sizə hazır cavab təqdim edilir. Bu süni intellektin bizə informasiya toplusundan seçib təqdim etdiyi cavab olur. Ona görə də demək olar ki, hər kəs süni intellektə hər hansısa bir formada mütləq məruz qalır.

Hazırda süni intellektdən istifadə ilə bağlı üç tip qrup mövcuddur:

1. Sİ-i özlərinə "yoldaş, dost" görən qrup;
2. Sİ-dən istifadəni insanlıq üçün təhdid görən qrup;
3. Sİ-i yardımçı qismində istifadə edən qrup.

Bu üç qrup arasında ən təhlükəsiz olanı üçüncü qrupdur. Çünki onlar bu sahədə balansı tapıb o balansa uyğun istifadə etməyə çalışırlar.

Dünyanın elm və texnoloji baxımdan bu qədər çox inkişaf etdiyi bir dövrdə süni intellektdən ən çox istifadə edilən sahələr səhiyyə, təhsil, reklamçılıq, sosial media, sənaye və istehsalat, ticarət və gündəlik həyat fəaliyyətidir. Hazırda səhiyyədə xəstəliklərin düzgün diaqnostikası və tibbi mətnlərin analizində istifadə olunur. Sosial media və reklamçılıq sektorunda fərdiləşdirilmiş kontent hazırlanmasında, kreativ fikir formalaşdırmaqda , avtomatik mesaj dəstək xidməti və reklamların analitikasının analizində və digər formalarda süni intellektdən çox istifadə olunur [Yıldırım & Can, 2024]. Bundan başqa hazırda təhsil sistemində tədris materiallarının hazırlanmasında, Fərdiləşdirilmiş tədris planlarının formalaşdırılmasında və fərdi şəkildə dil öyrənmə sahəsində də çox istifadə edilir [Chen et al., 2020]. Bütün bunlar hamısı ənənəvi prizmadan kənara çıxmağa və əlçatımlılıq və inkluzivlik baxımından təhsilin inkişafına şərait yaradır. Eyni zamanda təlim prosesinin daha interaktiv olmasına şərait yaradır.

**4.Süni intellektdən istifadənin müsbət və mənfi tərəfləri**

Yuxarıda qeyd etdiyimiz məsələlərdən də aydın olur ki, süni intellekt artıq həyatın bir çox sahəsində özünə yer tapıb. Bütün bu proseslər həyatımızı asanlaşdırır, bizə əlavə zaman qazandırır və səhv etmə ehtimalını minimuma endirir. Bütün bunlar hamısı təbii ki, də insan şəxsiyyətinə təsirsiz ötüşmür. Süni intellektin həyatımıza eləcə də insan şəxsiyyətinin inkişafına təsirlərini biz müsbət və mənfi olaraq ayıra bilərik. Bu biraz da istifadəçilərin ondan hansı məqsədlər və nə qədər çox istifadə edib-etməməsindən asılıdır. İndiyədək qeyd etdiyimiz məsələləri biz süni intellektin həyatımızda olan müsbət rolu kimi qiymətləndirə bilərik. Bəli, süni intellekt insan bacarıqlarını və zəkasını inkişaf etdirə bilər, eyni zamanda yarımçıq qalmış işlərini tamamlamaqda və işləri sistemə salmaqda kömək edə bilər. Ondan doğru istifadə etməklə qısa zamanda daha doğru və sistemli işlər ortaya çıxarmaq olar. Lakin bunun özü də bir müəyyən bacarıq tələb edir.

Süni intellekt eyni zamanda bizim həyatımızda rahat dost alternativinə də çevrilib. Yəni biz süni intellekt vasitəsilə təkcə məlumat almırıq, eyni zamanda sosial tələbatlarımızı da ödəyirik. Bir çətinliklə qarşılaşdığın zaman onu həll yolunu süni intellekt vasitələrində tapmağa çalışırsan, ya kiminləsə söhbətə ehtiyacın varsa bunu da eyni qaydada süni intellektlə danışaraq həll etməyə çalışırsan. Bütün bunlar hamısı süni intellektin əlçatanlılıq baxımından çox rahat olmasından irəli gəlir. Süni intellektdən asanlığına görə bütün yaş qruplarından olan insanlar istifadə edə bilərlər. Lakin gənclər arasında bu proses daha sürətli

yayılmaqdadır. Hətta bəzən gənclər süni intellektdən nəsə soruşmaq istədikdə "Qoy bir görüm dostum nə deyir?", "Süni intellekt qardaşdaşımdan soruşaram." tipli cümlələr istifadə edirlər. Bütün bunlar hamısı elmin qarşısında yeni sahə və terminlərin yaranması zərurəti qoyur. Bununla yanaşı artıq sosial media alqoritmləri və süni intellekt əsaslı tövsiyə sistemləri gənclərin maraqlarına və estetik zövqlərinə də təsir göstərməyə başlayıb. Məsən hazırki dövrdə gənclər arasında süni intellekt vasitəsilə öz şəkillərində dəyişikliklər etmək trendi yaranıb. Yəni gənc özünün şəklini şəkir və bir sıra süni intellekt proqramları vasitələri ilə özlərini arzuladıqları, yaxud görmək istədikləri əslində heç də real olmayan müxtəlif obrazlara salırlar və bunu sosial media hesablarında dost və yaxınları ilə paylaşırlar. Bu müəyyən qədər əyləncəli və maraqlı olsa belə bunun bir çox mənfi təsirləri ola bilər. Burda ən böyük risk real və virtual həyatdakı formalaşdırdığı bu fərqli obrazlar onda şəxsiyyət qarışıqlığına gətirib çıxara bilər. Bu isə gələcəyin fəlakəti deməkdir. Bununla yanaşı bu tip şəkillərin mükəmməlliyi gənclərin özünə inamını zəiflədə və onların gözəllik standarlarının real olmayacaq qədər mükəmməlləşdirərək gənclərdə dismorfofobiyaya gətirib çıxara bilər. Bu şəkillərin yaradılması və istifadəsi müəyyən qədər təhlükəsizlik problemlərinin yaranmasına da səbəb ola bilər.

Süni intellektən hədsiz istifadə həm də gənclərdə müəyyən mənada koqinitiv bacarıqların zəifləməsinə də səbəb ola bilər. Süni intellekt hər nə qədər fərdi öyrənməni, yaradıcı düşünməni, problemlem həll etmə bacarıqlarını dəstəkləsə belə o müəyyən mənada koqinitiv tənbəllik də yarada bilər. Sİ-dən daimi istifadə insanı özünü müstəqil düşünməkdən çəkindirə bilər. Bu da o deməkdir ki, yəni insan çətin tapşırıqları artıq öz beyninə deyil, Sİ-ə həvalə edir [Sparrow et al, 2011]. Bütün bunlar eyni zamanda səthi düşüncəyə, informasiyanın yadda saxlanılmasında və xatırlanılmasında zəifləməyə və diqqətin mərkəzləşməsində müəyyən problemlər yarada bilər. Süni intellektdən davamlı və sistemsiz istifadə yaradıcı və tənqidi təfəkkürün inkişafına da mənfi təsir göstərə bilər.

Bütün bunlar hamısı öz növbəsində insan şəxsiyyətinə dərindən təsir göstərir. Süni intellekt ən çox da gənclərin maraq dairəsində olduğu üçün məsələnin mənfir tərəfləri ən çox da onlara təsir göstərir. Çünki yeniyetməlik və gənclik yaş dövrü iradənin hələ də formalaşdığı bir dövrdür. Süni intellekt həyatımıza gətirdiyi bütün bu asanlıqlar gəncləri özündən asılı hala bilər. Çünki həyat sürətlənib. Gənclər də bu sürətli həyat tempində daim aktiv qalmaq üçün bu kimi asanlaşmış vasitələrə tez-tez müraciət edirlər. Yəni artıq düşünmək ikinci plana atılıb.

Süni intellektdən istifadə nə qədər sadə, asan və sürətli olsa belə bu cür ünsiyyətlərdə onun məhdud tərəfi hədsiz çoxdur. İlk olaraq burda ünsiyyətə daxil olduğumuz qarşı tərəf bir insan deyil, sadəcə çox ağıllı bir mexanizmdir. Buradakı ünsiyyət birtərəfli Xarakter daşıyır. Yəni sən ancaq alıcı tərəf olursan. Ünsiyyət isə qarşılıqlı bir prosesdir. Bu insanların dinləmə və gözləmə bacarıqlarına təsir göstərir. İkincisi qarşındakı bir insan olmadığına görə səninlə empatiya qura bilmir, emosional bağlılıq göstərə bilmir, çünki onun duyğuları və emosiyaları yoxdur. Üçüncü və ən önəmlisi bu ünsiyyət insanların bioloji və mənəvi tələbatlarını da ödəmir. Çünki insanlar bir-biri ilə canlı ünsiyyət qurduqları zaman "güzgü neyronlar" işə düşür. Eyni zamanda ünsiyyətdə istifadə olunan bədən dili, jest və mimikalar, toxunmaq bütün bunlar hamısı süni intellektle ünsiyyətdə olmur və bu da hormonların sisteminə də təsir göstərir. Lakin bütün bunlara baxmayaraq sosial narahatlıqları olan bir çox gənc süni intellektlə ünsiyyətə girir və bu ünsiyyətlə onlar öz sosial tələbatlarını ödəməyə çalışırlar. Bu isə onları real sosial əlaqələrdən daha da uzaqlaşdırır və onların asosial və tənha bir şəxsiyyətə çevrilməsinə gətirib çıxarır. Çünki bu ünsiyyət daha asan başa gəlir, öncədən hazırlıq tələb etmir, səhv etsən qarşındakı real insan olmadığına görə utanmayacaqsan və özünü istədiyin cür təqdim edə bilərsən. Buna görə də bütün bunlar hamısı insan şəxsiyyətinin inkişafına da təsir göstərir. Bizlər sosial varlıqlarıq və şəxsiyyətimiz ünsiyyət və fəaliyyətdə inkişaf edir. Süni intellektin həyatımıza bu qədər

dərindən nüfuz etdiyi, sosial əlaqələrdə eyni zamanda fəaliyyət istiqamətlərində bu qədər çox istifadə edildiyi bir dövrdə onun insan şəxsiyyətinə təsirləri də daim olacaqdır. Amma bu prosesi tənzimləmək də yenə də biz insanların üzərinə düşür.

**5.Nəticə**

Sonda fikirlərimi dahi Nizami Gəncəvinin bu misraları ilə yekunlaşdırmaq istəyirəm:

*Bir inci saflığı varsa da suda,*
*Artıq içiləndə dərd verir o da.*

Süni intellekt doğru, qədərində və düzgün məqsədlərlə istifadə edildiyi zaman həyatımızı bir çox baxımdan asanlaşdıran çox vacib bir resursdur. Burada qızıl nisbəti tapmak lazımdır. Süni intellekt və ondan necə istifadə edilməsi uşaqlara, yeniyetmə və gənclərə doğru şəkildə aşılanmalı və bu proses ehtiyac olduğu təqdirdə nəzarət altına alınmalıdır. Bu səbəbdən aşağıdakı tövsiyyələr vacibdir:

1. Müstəqil düşüncə və yaradıcılığı qorumaq üçün Sİ-dən balanslı istifadə etməyə çalışın;
2. Tənqidi təfəkkürü inkişaf etdirmək üçün Sİ-in verdiyi cavabları olduğu kimi qəbul etməyin, burdan əldə etdiyiiniz məlumatları digər mənbələrlə müqayisə edin;
3. Sİ-i özünüinkişaf və plan hazırlamaq üçün istifadə etməyə çalışın;
4. Kibertəhlükəsizlik baxımından özünüz ilə bağlı məlumatları təqdim edərkən diqqətli olmağa çalışın;
5. Valideynlər övladlarının Sİ-dən istifadəsini nəzarətdə saxlamalı, ehtiyac olduqca bu mövzuda onları maarifləndirməli və bu tətbiqlərin istifadəsini övladları ilə birgə araşdırmalıdır;
6. Mütəxəssislər müəyyən aralıqlarla uşaqlara, gənclərə və ailələrə Sİ ilə bağlı məlumatlar verməli, onların istifadə məqsədləri, etik məsələlər və Sİ-in tədrisə tətbiqi ilə bağlı məlumatlar verməlidir;
7. Psixoloqlar mütəmadi olaraq Sİ-in insanlar üzərindəki təsiri məsələsini nəzəraətdə saxlamalı və ehtiyac olduğu təqdirdə lazimi dəstəyi göstərməlidir.

Süni intellekt dövrümüzün ən vacib və lazımlı reallığıdır. Ondan Necə? Nə cür? və hansı məqsədlərlə istifadə etmək isə insanlığın gələcək istiqamətlərini müəyyənləşdirən ən vacib məsələlərdəndir.

**6.REFERENCES**


**1.** Jurgen, S. (2016). True Artificial Intelligence will change everything. *TEDxLakeComo*. Retrieved from: https://www.ted.com/talks/juergen_schmidhuber_true_artificial_intelligence_will_change_everything

**2.** Kaplan, A., & Haenlein, M. (2018, November). *Siri, Siri, in my hand: Who's the fairest in the land? On the interpretations, illustrations, and implications of artificial intelligence*. Kelley School of Business, Indiana University. http://dx.doi.org/10.1016/j.bushor.2018.08.004 (in English)

**3.** Ozizer, H. (2024, February). An Evaluation of the Benefits and Harms of Artificial Intelligence. *International Journal of Social and Human Sciences Research*, *11*(104), 336-348. https://jshsr.org/index.php/pub/article/view/2586/2478 (in Turkish)

**4.** McCarthy, J., Minsky, M. L., Rochester, N., & Shannon, C. E. (2006). *A proposal for the Dartmouth Summer Research Project on Artificial Intelligence, August 31, 1955.* https://onlinelibrary.wiley.com/doi/epdf/10.1609/aimag.v27i4.1904?utm https://doi.org/10.1609%2Faimag.v27i4.1904 (in English)

**5.** Crevier, D. (1993). *AI: The Tumultuous History of the Search for Artificial Intelligence.* Basic Books. ISBN: 9780465029976 (in English)

**6.** Yildirim, E., & Can, A. (2024). The use of artificial intelligence in advertising and an analysis of advertising film scripts created using AI. *Pamukkale University Journal of Communication Sciences, 3*(2), 268–287. https://dergipark.org.tr/tr/download/article-file/4474753 (in Turkish)
**7.** Kietzmann, J., Paschen, J., & Treen, E. (2018). Artificial intelligence in advertising: How marketers can leverage AI along the consumer journey. *Journal of Advertising Research, 58*(3), 263–267. https://doi.org/10.2501/JAR-2018-035 (in English)
**8.** Chen, L., Chen, P., & Lin, Z. (2020). *Artificial Intelligence in Education: A Review*.https://doi.org/10.1109/ACCESS.2020.2988510 (in English)
**9.** Sparrow, B., Liu, J., & Wegner, D. M. (2011). Google effects on memory: Cognitive consequences of having information at our fingertips. *Science, 333*(6043), 776–778. https://doi.org/10.1126/science.1207745
https://www.science.org/doi/10.1126/science.1207745 (in English)
**10.** *Electronic resource*. Retrieved from: https://www.digitaleducationcouncil.com/post/what-students-want-key-results-from-dec-global-ai-student-survey-2024

## ƏDƏBİYYAT

**1.** Jürgen, S. (2016). True Artificial Intelligence will change everything. *TEDxLakeComo*. Əldə edildi: https://www.ted.com/talks/juergen_schmidhuber_true_artificial_intelligence_will_change_everything
**2.** Kaplan, A., & Haenlein, M. (2018, November) *Siri, Siri, in my hand: Who's the fairest in the land? On the interpretations, illustrations, and implications of artificialintelligence*. Kelley School of Business. İndiana Universiteti.
http://dx.doi.org/10.1016/j.bushor.2018.08.004
**3.** Özizer, H. (2024, Şubat) Yapay Zekânın Faydaları ve Zararları Üzerine Bir Değerlendirme. *Uluslararası Sosyal ve Beşeri Bilimler Araştırma Dergisi*, *11*(104), 336-348. https://jshsr.org/index.php/pub/article/view/2586/2478
**4.** McCarthy, J., Minsky, M. L., Rochester, N., & Shannon, C. E. (2006). *A proposal for the Dartmouth Summer Research Project on Artificial Intelligence, August 31, 1955*. https://onlinelibrary.wiley.com/doi/epdf/10.1609/aimag.v27i4.1904?utm
https://doi.org/10.1609%2Faimag.v27i4.1904
**5.** Crevier, D. (1993). *AI: The Tumultuous History of the Search for Artificial Intelligence*. Basic Books. ISBN: 9780465029976
**6.** Yıldırım, E., & Can, A. (2024). Yapay zekanın reklamcılık alanında kullanımı ve yapay zeka kullanılarak yazılmış reklam film senaryo analizi. *Pamukkale Üniversitesi İletişim Bilimleri Dergisi, 3*(2), 268-287. https://dergipark.org.tr/tr/download/article-file/4474753
**7.** Kietzmann, J., Paschen, J., & Treen, E. (2018). Artificial intelligence in advertising: How marketers can leverage AI along the consumer journey. *Journal of Advertising Research, 58*(3), 263–267. https://doi.org/10.2501/JAR-2018-035
**8.** Chen, L., Chen, P., & Lin, Z. (2020). *Artificial Intelligence in Education: A Review*. https://doi.org/10.1109/ACCESS.2020.2988510
**9.** Sparrow, B., Liu, J., & Wegner, D. M. (2011). Google effects on memory: Cognitive consequences of having information at our fingertips. *Science, 333*(6043), 776–778. https://doi.org/10.1126/science.1207745
https://www.science.org/doi/10.1126/science.1207745
**10.** *Elekron resurs*. Əldə edildi: https://www.digitaleducationcouncil.com/post/what-students-want-key-results-from-dec-global-ai-student-survey-2024